**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# EV TƏSƏRRÜFATLARININ GƏLİRLƏRİNİN FORMALAŞMASINDA ÖRÜŞLƏR VƏ YARDIMÇI İSTEHSAL SAHƏLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏNİN ROLU

İxtisas: **5312.01 – Sahə iqtisadiyyatı**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Niyaz Nizami oğlu Məmmədov**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetinin "Maliyyə və iqtisadi nəzəriyyə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rəna Ramazan qızı Modinova**

iqtisad üzrə fəlsəfə doktoru
**Xatirə Vəli qızı Qurbanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________
AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________
iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ____________
Əməkdar kənd təsərrüfatı işçisi,
iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ev təsərrüfatları tədqiqatı təkcə ev təsərrüfatlarının fəaliyyətini deyil, həmçinin bu fəaliyyətin nəticəsində formalaşan ev təsərrüfatlarının büdcələrinin strukturunu, quruluşunu və ona təsir edən amilləri öyrənir[1].

Son zamanlar geosiyasi aləmdə və dünya iqtisadiyyatında baş verən hadisələr istər Azərbaycanda, istərsə də dünyada ev təsərrüfatları və onların büdcələrinə öz təsirini göstərməkdədir və bundan sonra da göstərəcəyi istisna deyil. Belə ki, dünya əhalisinin və bunun müqabilində ev təsərrüfatlarının sürətlə artması fonunda onların yeni yaşayış sahələri ilə təmin olunması, artan qida və digər istehlak tələbatlarının ödənilməsi bütün dünya ölkələrinin, dövlətlərin qarşısında duran ən ümdə məsələlərdən biridir. Ev təsərrüfatlarının tədqiqi həm "perspektiv" əhali və ev təsərrüfatlarının sayını müəyyən etməyə imkan verir, həm də bu artımın müqabilində ev təsərrüfatlarının istehlak tələbatının və sosial-iqtisadi vəziyyətinin hansı istiqamətdə dəyişdiyi müəyyənləşdirməyə şərait yaradır.

Bu fikirlər bizə ev təsərrüfatlarının ölkə iqtisadiyyatında əhəmiyyətini, və dövlətin iqtisadi siyasətinin təməlində ev təsərrüfatlarının sosial vəziyyətinin durduğunu qeyd etməyə imkan verir.

Azərbaycanda Dövlət Proqramına müvafiq qaydada ev təsərrüfatının büdcə tədqiqatının aparılmasının təşkili, ailələrin düzgün seçilməsi, göstəricilərin beynəlxalq standartlara uyğunlaşdırılması və s. istiqamətində tədqiqat işləri aparılır. Ev təsərrüfatı büdcəsi əsasında ailə, yaşayış məntəqəsi, region və respublika üzrə, habelə sahələr, bölmələr, fəaliyyət növü və s. üzrə mühüm iqtisadi göstəriciləri hesablamaq məqsədilə tədqiqatlar aparılır. Xüsusi göstəricilərdən ümumi göstəricilərə keçilir. Nəticədə, ÜDM, milli gəlir, qiymət, yaşayış həddi, iqtisadi fəaliyyət və digər makrogöstəricilərin düzgün hesablanması, gizli iqtisadiyyatın müəyyən edilməsi üçün imkan yaranır.

Lakin bu tədqiqatlarda məxsusi olaraq dağlıq və dağətəyi rayonlarda örüşlər və şəxsi yardımçı təsərrüfatların ev təsərrüfatlarının

---

[1] 2018-ci ildə ev təsərrüfatları tədqiqatının yekunları. / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2019. −176 s.

büdcəsinə və gəlir mənbələrinə konkret olaraq necə təsir etdiyi müəyyənləşdirilməyib. Ölkəmizin təbii yem ehtiyatlarından sayılan örüşlərin münbitliyinin artırılması heyvandarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edən amillərdəndir. Bu baxımdan ölkəmizin bir çox bölgəsində olduğu kimi Kiçik Qafqazda yerləşən yay və qış otlaqları (örüş yerləri) əsas təbii yem bazalarından biri olaraq respublikamızın iqtisadiyyatında (heyvandarlığın inkişafında) mühüm rol oynayır. Ona görə də bu torpaqlarından istifadənin iqtisadi səmərəliliyini yüksəltmək üçün ilk növbədə onların ekoloji vəziyyətinin öyrənilməsi və bu sahədə çatışmayan cəhətlərin aradan qaldırılması zəruri hal təşkil edir.

Otuz ilə yaxın işğal olunmuş torpaqlarımızın ölkə Prezidenti İlham Əliyevin cəsarətli siyasəti və müzəffər ordumuzun rəşadəti nəticəsində azad edilməsi də bu sahədə yeni perspektiv imkanlar yaradır. Həmin ərazilərdə geniş otlaq və örüş sahələrinin mövcud olması, bu ərazilərdə torpaqların yenidən kənd təsərrüfatı istehsalına cəlb edilməsi, eləcə də yaradılan və yaradılacaq yaşayış məntəqələrində məşğullunun təmin edilməsi ev təsərrüfatlarının gəlir mənbələrinin şaxələndirilməsi və eyni zamanda gəlirlərinin artırılması istiqamətində potensial imkanlar yaradır. Həm yuxarıda vurğulanan məsələlər, həm də qeyd etdiyimiz bu fikir, yəni örüş və yardımçı təsərrüfatların rolunun tam əks olunmaması bizim tədqiqatımızın vacibliyini və aktuallığını əhəmiyyətli dərəcədə artırır, tədqiqat mövzusunun bu istiqamətdə müəyyənləşdirilməsini şərtləndirir.

Ev təsərrüfatlarının gəlirləri və ona təsir edən amillər təkcə dövlətin yox ayrı-ayrı iqtisadçı alimlərin də diqqət mərkəzində olmuşdur. Azərbaycan alimlərindən bu mövzu ilə bağlı müxtəlif yönümlü araşdırmaları Z. Ə.Səmədzadə, E.A.Quliyev, E.R.İbrahimov, B.X.Ataşov, İ.H.İbrahimov, M.C.Hüseynov, N.A.Novruzov, N.V. Əlibəyov, E.N.Kərimov, B.O.Osmanov, E.A.Salahov və digərləri aparmışlar.

Həmçinin N.Q.Menkyu, R.D.Kay, R.B.Ekelund, R.F.Hébert, H.Becker, S.Gary, D.R. Carmichael, D.I. Kertzer, D.B.Nagle, V. Beckmann, A.Didebulidze, V.İ.Levaşov, V.N.Çerkoveç kimi xarici ölkə alimləri də istər problemin müxtəlif aspektləri ilə bağlı araşdırmalar aparmışlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Kiçik Qafqaz ərazisində Azərbaycanın Gəncə-Qazax bölgəsi, Gürcüstanda

Kaxeteya bölgəsinin örüş yerləri və ərazilərdəki ev təsərrüfatları təşkil edir. Ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında, onların sosial-iqtisadi vəziyyətinin formalaşmasında və yaxşılaşdırılmasında örüşlər və yardımçı istehsal sahələrindən səmərəli istifadənin rolu istiqamətində aparılan tədqiqat işindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ev təsərrüfatlarının gəlirlərinin formalaşmasının mexanizminin nəzəri-metodoloji əsaslarını və ev təsərrüfatlarının gəlirlərinin artırılması istiqamətində potensial imkanlarını tədqiq etmək, və bu istiqamətdə elmi əsaslara söykənən nəzəri və təcrübəvi əhəmiyyətli təklif və tövsiyələr hazırlamaqla örüş və yardımçı sahələrdən (səmərəli) istifadənin rolunu yüksəltməkdən ibarətdir.

Bu məqsədlərə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- ev təsərrüfatları və onların mahiyyətini, ev təsərrüfatlarının istehlakçı funksiyası ilə yanaşı, istehsalçı funksiyasının da mövcudluğunu tədqiqi;
- ev təsərrüfatlarının gəlirlərinin formalaşması mexanizminin nəzəri əsasları və metodologiyası, eləcə də onları formalaşdıran mənbələrə elmi yanaşmaları sistemləşdirilməsi;
- ev təsərrüfatları ilə ailə, ailə kəndli, fərdi sahibkar və digər iqtisadi subyektlərin arasında fərqlərin müəyyən edilməsi;
- ev təsərrüfatlarının gəlirlərinin artırılmasında örüşlər və yardımçı təsərrüfatların rolunun müəyyənləşdirilməsi;
- ev təsərrüfatlarının gəlirlərinin mövcud səviyyəsi və ona təsir edən amilləri qiymətləndirilməsi;
- ev təsərrüfatlarında örüş yerlərindən və yardımçı istehsal sahələrindən istifadənin səmərəliliyini müəyyənləşdirilməsi;
- örüşlər və yardımçı təsərrüfatlardan səmərəli istifadənin əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətlərinin müəyyən edilməsi;
- ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında və örüşlərdən səmərəli istifadədə yardımçı təsərrüfatların rolunun artırılması istiqamətlərinin aşkara çıxarılması;
- məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirləri arasındakı əlaqələrin tənzimlənməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqat metodları:** Dissertasiya işinin yerinə yetirilməsi üçün ev təsərrüfatlarının müəyyən edilməsində “seçmə metodu”nun müxtəlif növlərindən, sistemli yanaşma, qrafik, cədvəl və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Eləcə də, gəlir və xərc göstəricilərinin hesablanması zamanı kənarlaşmaların minimuma endirilməsi üçün toplanmış məlumatlar “MAX” Excel proqramında emal olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

- ev təsərrüfatlarının təkcə istehlakçı yox, eyni zamanda istehsalçı funksiyalarının da mövcudluğu;
- ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında ayrı-ayrı kənd təsərrüfatı fəaliyyəti sahələrinin rolunun qiymətləndirilməsi;
- daxili və xarici amillərin ev təsərrüfatlarının gəlirlərinin formalaşmasına təsirinin müəyyənləşdirilməsi;
- dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarının gəlirlərinin arıtırılması potensialının araşdırılmasıı;
- örüşlər və heyvanların baş sayı arasındakı tarazlığın təmin edilməsinin ev təsərrüfatlarının gəlirlərinə müsbət təsirinin və bu baxımdan bir qanunvericilik mexanizminin formalaşdırılması yollarının əsas istiqamətləri müəyyənləşdirilib;
- ev təsərrüfatı üzvlərinin kənd təsərrüfatı fəaliyyəti sahələri ilə məşğulluğunun stimullaşdırılmasına təsir edən amillərin müəyyənləşdirilməsi;
- məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirləri arasındakı əlaqələrin tənzimlənməsi istiqamətləri.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- ölkənin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasında xüsusi ilə kənd təsərrüfatı sahəsi ilə məşğul olan ev təsərrüfatlarının istehsalçı funksiyasının əhəmiyyəti əsaslandırılıb;
- hər bir iqtisadi subyektin səciyyəvi xüsusiyyəti vurğulanaraq ev təsərrüfatları ilə ailə, ailə kəndli təsərrüfatı və fərdi sahibkarlıq subyektləri ilə olan oxşar və fərqləri cəhətləri elmi əsaslarla müəyyənləşdirilib;
- ev təsərrüfatlarında örüş yerlərindən və yardımçı istehsal sahələrindən istifadənin səmərəlilik göstəricilərinin hərtərəfli təhlili

əsasında onların səmərəli istifadə yolları müəyyənləşdirilmiş və elmi cəhətdən əsaslandırılıb;

- ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında örüş yerləri və yardımçı təsərrüfatların rolunu müəyyənləşdirmək üçün vahid uçot sistemin yaradılmasının əhəmiyyəti əsaslandırılıb;
- örüşlər və heyvanların baş sayı arasındakı tarazlığın təmin edilməsi və bu baxımdan müvafiq qanunvericilik mexanizminin formalaşdırılması istiqamətləri müəyyənləşdirilib;
- ev təsərrüfatlarının pul gəlirlərinin artırılmasında və onların büdcələrinin formalaşmasında potensial gəlir mənbələri və onlardan istifadənin istiqamətləri müəyyən edilib;
- məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirləri arasındakı əlaqələrin tənzimlənməsi istiqamətlərinin araşdırılıb və müvafiq təkliflər hazırlanıb.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Disssertasiya işinin –tədqiqatın nəticələri əsasında irəli sürülmüş təklif və tövsiyələr ev təsrrüfatlarının gəlirlərinin çoxşaxəli və müxtəlif istiqamətli olması və bunun müqabilində onların büdcələrinin yaxşılaşdırılması istiqamətində praktiki əhəmiyyətə malik olmaqla bərabər bu istiqamətdə həyata keçirilə biləcək proqram və layihələrdə öz əksini tapa bilər.

**Dissertasiya işinin nəticələrinin aprobasiyası və tətbiqi:** Dissertasiyanın məzmunu nəşr edilmiş 13 məqalə və tezisdə (o cümlədən biri impakt faktorlu olmaqla) öz əksini tapmışdır. Dissertasiya mövzusu üzrə tədqiqatın nəticələri elmi-nəzəri və praktiki konfranslarda müzakirə edilərək bəyənilmişdir. Tədqiqat işinin nəticələri Almaniyanın Folksvagen elm fondunda fondunda müzakirə edilərək istifafə üçün qəbul edilməsi məqsədəuyğun hesab edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, 133 ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş 7 səhifə olub 10366 işarədən, birinci fəsil 42 səhifə olub 75461 işarədən, ikinci fəsil 55 səhifə olub 73813 işarədən, üçüncü fəsil 41 səhifə olub 75343 işarədən, nəticələr 6 səhifə olub 9760 işarədən və istifadə edilmiş 133 sayda ədəbiyyat siyahısı 14 səhifə olub 17323 işarədən

ibarətdir. Dissertasiyanın işinin ümumi həcmi 171 səhifədir. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə) 134 səhifə kompüter yazısı və ya 244743 işarə təşkil edir. Dissertasiya işində 3 sxem, 1 şəkil və 20 cədvəl və 6 əlavə verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin **"Ev təsərrüfatlarının gəlirlərinin formalaşmasının nəzəri- metodoloji əsasları"** adlanan 1-ci fəslində ev təsərrüfatı anlayışına dair elmi baxışlar, ev təsərrüfatlarının gəlir və xərclərini formalaşdıran mənbələrin araşdırılması, örüş yerlərinin və yardımçı sahələrin ev təsərrüfatı gəlirlərinin formalaşmasındakı rolu məsələləri şərh edilir.

Bazar iqtisadiyyatında ev təsərrüfatı əhəmiyyətli vəzifələri icra edir. Ev təsərrüfatlarının aparılması əsasında bir sıra vacib vəzifələr durur. Ona əməyin sərf olunduğu yer, əhalinin məşğulluğunun tənzimləyicisi kimi də baxılır. Ev təsərrüfatları nəzdində ailə biznesi yaradılır, zəruri resurs və ailə kapitalının yaradılması fonunda bazar münasibətlərinin formalaşmasına zəmin yaranır. Ev təsərrüfatlarının daşınmaz əmlaka, kapital və maliyyə aktivlərinə, uzun müddətli istifadə edilən əmtəələrə (əmlak) malik olması onlara bazar iqtisadiyyatında rəqabət mühiti yaradır. Mal və əmtəə qıtlığı şəraitində də ev təsərrüfatının əhəmiyyəti özünü büruzə verir. Müəyyən iqtisadi və sosial böhranlarda ictimai istehsal tələbatı ödəmir və ev təsərrüfatları şəxsi istehsal hesabına özünü təminetməni reallaşdırır. Hazırkı dövrdə olduğu kimi, gələcəkdə də ev təsərrüfatlarının istehsal etdiyi məhsul və xidmətlərin həcmi ölkədə istehsal olunan məhsulun ümumi həcmində payı artacaqdır[2].

Müasir şəraitdə ev təsərrüfatlarının yerinə yetirdiyi müvafiq funksiyaları qeyd etmək mövzunun aktuallığı baxımından vacibdir:

---

[2] Ataşov, B.X. Maliyyə nəzəriyyəsi. Dərslik. / B.X. Ataşov, N.A.Novruzov, E.Ə.İbrahimov –Bakı: Kooperasiya –2014. –648 s.

- ev təsərrüfatları istehlakçı rolunu oynayaraq müəssisələr tərəfindən istehsal olunan əmtəə və xidmətlərin alıcısı qismində çıxış edirlər;
- istehsalçı funksiyasını yerinə yetirərək istehsal etdikləri məhsulları həmin müəssisələrə təklif edirlər;
- ev təsərrüfatları istehsal nəticəsində yaranmış məcmu gəlirin müəyyən hissəsini yığıma yönəltməklə, real maliyyə aktivləri-valyuta resursu formalaşdırırlar[3].

İqtisadi fəaliyyətin üç əsas (digər ikisi -dövlət, firma) subyektindən biri olan ev təsərrüfatı, daim insanın yaşadığı iqtisadi subyektləri və orada baş verən prosesləri əhatə edir. Ev təsərrüfatı bir və ya daha çox şəxsdən ibarət olan, iqtisadi resurslarla təchiz edən və əldə etdiyi pulu insanın maddi və mənəvi tələbatlarını ödəyən əmtəə və xidmətlərin mənimsənilməsinə sərf edir.

Ev təsərrüfatı - ümumi iş, yaşayış yeri, büdcə və adətən, ailə-qohumluq əlaqələri ilə birləşmiş insanlar qrupunu əhatə edir. Ev təsərrüfatında ailənin fəaliyyəti bioloji, demoqrafik, psixoloji, sosial və digər amillərlə müəyyənləşdirilir.

Beləliklə, tərkibində bir və ya birdən çox insan olan iqtisadi subyekti biz ev təsərrüfatı adlandırdıq. Əsas etibarı ilə insan fəaliyyətinin bir istehlakçı (xüsusən də şəhər yerlərində yaşayan ev təsərrüfatları), bəzi hallarda isə istehsalçı kimi təzahürü olan ev təsərrüfatları malik olduqları büdcənin müəyyən hissəsini (bəzən böyük bir qismini) məhsul və xidmətlərə, qalan hissəsini isə yığıma yönəldirlər. Yığıma yönəlmiş bu vəsait sonrakı və gələcək tələbatları ödəmək üçün istifadə edilir. Yığım ev təsərrüfatlarının gəliri hesabına formalaşdığı halda, onların gələcəkdəki xərclərinin mənbəyinə çevrilir. Ev təsərrüfatlarının gəlir və xərclərini formalaşdıran mənbələr isə müxtəlifdir.

Dissertasiya işinin **"Ev təsərrüfatlarının gəlirlərinin mövcud vəziyyəti: örüşlər və yardımçı təsərrüfatlardan istifadənin səmərəliliyi"** adlanan 2-ci fəslində ev təsərrüfatlarının maliyyə nəticələrinin mövcud vəziyyəti, ev təsərrüfatlarında örüş və şəxsi yardımçı

---

[3] Səmədzadə, A.Z. Əhalinin istehlakının quruluşu və onun yaxşılaşdırılmasının sosial-iqtisadi amilləri: / iqtisad üzrə fəlsəfə doktoru dissertasiyası/ −Bakı, 2016. −148 s.

təsərrüfatlardan istifadənin səmərəliliyi: maliyyə nəticələrinin (və ya mənfəətin) dinamikası təhlil edilir.

İqtisadiyyat barədə sistemli məlumatlar əldə etmək üçün elmi üsullardan istifadə olunur. Bunun nəticəsində isə iqtisadi hadisələrin mahiyyətini anlamaq mümkündür. Bütün iqtisadi tədqiqatlarda olduğu kimi bizim tədqiqatımız da sistemli yanaşma və müqayisəli təhlil metodu əsasında aparılmışdır. *Metod*- hər hansı bir işin dahah çox məqsədəuyğun şəkildə yerinə yetirmək üçün istifadə edilən qaydaların, üsulların məcmusudur. Bu metod dörd əsas mərhələdən ibarətdir. Birinci mərhələdə tədqiqat obyektləri barədə məlumatların ətraflı şəkildə toplanması və bunun nəticəsində konkret tədqiqat obyektlərinin seçilməsi təmin edilmişdir. Növbəti addımda toplanmış faktlarla ev təsərrüfatlarında mövcud durumu təhlil və müqayisə etmək üçün sorğu blankları tərtib edilmişdir. Tərtib edilmiş sorğu blankları əsasında ev təsərrüfatlarında sorğuların keçirilməsi reallaşdırılmışdır. Üçüncü mərhələdə sorğu nəticəsində toplanmış maliyyə göstəriciləri müxtəlif kompüter proqramlarının da köməyi ilə təhlil edilmişdir. Sonuncu mərhələdə tədqiqat obyektləri üzrə əldə edilmiş nəticələr müqayisə edilərək yekun fikirlər formalaşdırılmışdır, müvafiq təkliflər irəli sürülmüşdür.

Şəkildə təsvir edildiyi kimi tədqiqat Azərbaycan Respublikasının Gəncə-Qazax regionunda və Gürcüstanın Kaxetiya regionunda aparılmışdır. Hər iki respublikada üç rayon, hər rayonda bir kənd olmaqla ümumilikdə altı kənddə elmi tədqiqat işi aparılmışdır.

İki ölkənin dağlıq regionunu əhatə edən tədqiqat bölgəsinin seçilməsi təsadüfi xarakter daşımır. Belə ki, hər iki bölgə eyni iqlim tipinə, eyni coğrafi relyef və ərazi quruluşuna, dəniz səviyyəsindən hündürlüyə, eyni kənd təsərrüfatı ənənələrinə malik olan regionlar seçilmişdir.

Sorğunun birinci mərhələsində əldə olunan nəticələrə əsasən deyə bilərik ki, Azərbaycanın tədqiqat kəndlərinin 33-71%-i, Gürcüstan kəndlərinin isə 30-47%-i sorğuya cəlb olunmuşdur. Sorğuda istirak edən respondentlərin 62%- kişi, 38%-i qadındır. Eləcə də, respondentlərin 52%-i ailə başçısı (kişi), 30%-i ailə başçısının arvadı, 18%-i digər ailə üzvləridir. Müsahiblərin yaşı 18-86 yaş aralığında dəyişdiyi

halda orta yaş həddi 51-dir. Azərbaycanda və Gürcüstanda sorğu götürülən ev təsərrüfatlarında işçi qüvvəsi ailə üzvlərinin müvafiq olaraq 71 və 68 faizini təşkil edir. Yəni tədqiqat ərazisi olaraq Azərbaycan Respublikasının Gəncə-Qazax və Gürcüstanın Kaxetiya regionları seçilmişdir. Bundan sonra hər bir region üzrə 3 rayon müəyyənləşdirildi. Seçilmiş rayonların bələdiyyələrindən tədqiqat kəndlərinin müəyyən edilməsi üçün bir sıra məlumatlar toplanıldı. Hər bir rayon üzrə kəndlərin sayı, onların dəniz səviyyəsindən yüksəkliyi, kəndlər üzrə ev təsərrüfatlarının sayı, heyvandarlıq və əkinçiliyin vəziyyyəti, köçəri təsərrüfatların sayı, ərazi haqqında (əkin sahəsi, pay torpağı, həyətyanı sahə, örüş sahələri, yay və qış otlaqları və s.) məlumatlar toplanıldı. Bu məlumatların toplanması təsadüfi deyildi çünki, kəndlərin seçimi üçün müəyyən kriteriyalar təyin edilmişdi.




**Şəkil: Tədqiqat əraziləri.Gəncə -Qazax bölgəsi və Kaxetiya rayonu**

Model təsərrüfat üçün hər iki ölkənin tədqiqat kəndi üzrə ev təsərrüfatlarında orta ailə üzvlərinin sayı, işçi qüvvəsi, eləcə də əsas bitkiçilik və heyvandarlıq fəaliyyətləri üzrə orta göstəricilər müəyyən edilmişdir (cədvəl 1).

Təhlil mərhələsində altı tədqiqat kəndində müxtəlif kənd təsərrüfatı fəaliyyət sahələri üzrə əldə olunan satışdan gəlir və xərcin təsnifatı, mənfəət və rentabellik səviyyəsi müəyyən edilmişdir. Gürcüstanda ev təsərrüfatlarının bizim ev təsərrüfalarına nisbətən 10 faiz bəndi daha çox qeyri-kənd təsərrüfatı fəaliyyəti sahəsində məşğul olması, bu sahənin Gürcüstan kəndləri üzrə xüsusi çəkisinin yüksək

olmasına gətirib çıxarmışdır. Belə ki, ev təsərrüfatlarının qeyri-kənd təsərrüfatı fəaliyyəti sahələrindən əldə etdikləri gəlir də Azərbaycanın ev təsərrüfatlarına nisbətən daha çoxdur. Qombori kəndində qeyri-kənd təsərrüfatından əldə edilən gəlir orta hesabla 225 manat (326 lari), Araşenda kəndində 262 manat (380 lari), Şaxvetila kəndində isə 235 manatdır (340 lari). Bu Azərbaycanın tədqiqat kəndlərindən 48-85 manat azdır. Lakin həm kənd təsərrüfatından əldə edilən gəlirə görə, həm də pensiya daxilolmalarına görə Gürcüstan kəndləri Azərbaycanın kəndlərindən geri qalır.

Cədvəl 1. 2015-2019-cu illərdə Azərbaycanın və Gürcüstanın tədqiqat kəndləri üçün yaradılmış model ev təsərrüfatlarının göstəriciləri

| Göstəricilər | Vahid | Azərbaycan | | | Gürcüstan | | |
|---|---|---|---|---|---|---|---|
| | | Atabəy | Plankənd | Kərəmli | Qombori | Araşenda | Şaxvetila |
| Ailə üzvləri | Nəfər | 5 | 5 | 5 | 4 | 4 | 3 |
| İşçi qüvvəsi | Nəfər | 3.3 | 3.3 | 3.6 | 2.88 | 3,17 | 2,49 |
| Əkin sahəsinin orta göstəricisi | Ha | 2,35 | 0,37 | 2,39 | 0,85 | 2,03 | 0,35 |
| Həyətyanı sahənin orta göstəricisi | Ha | 0,30 | 0,28 | 0,36 | 0,28 | 0,29 | 0,40 |
| Biçənək sahəsinin orta göstəricisi | Ha | 0,96 | 0,32 | 1,8 | 0,30 | 0,14 | 0,51 |
| Südlük inək | Baş | 2.3 | 2. | 3 | 2.34 | 4,79 | 3,84 |
| Anac qoyun | Baş | 11.7 | 18 | 15 | 6.73 | 26,81 | 2,03 |
| Quşçuluq | Baş | 11.63 | 10 | 26 | 18 | 33,46 | 17,71 |
| Arı ailəsi | Ədəd | 5 | 5 | 8 | 7 | 2,13 | 5,97 |
| Taxıl | Ha | 1,4 | - | 2 | - | 2,03 | - |
| Kartof | Ha | 1 | 0.28 | 0,26 | 0,85 | - | - |
| Üzüm | Ha | - | - | - | - | 1,14 | - |

Cədvəl Azərbaycan və Gürcüstan Respublikalarında icra edilən sorğu məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Kənd təsərrüfatında gəlirin xüsusi çəkisi ən çox olan Araşenda kəndində əldə edilən gəlir (530 manat) müvafiq kateqoriyada ən yüksək göstəriciyə malik Atabəy kəndindəki gəlirdən (928 manat) 1,8 dəfə azdır. Kənd təsərrüfatı fəaliyyətindən əldə edilən gəlirin xüsusi çəkisinin ən az olduğu Qombori kəndində ev təsərrüfatlarının əldə etdiyi gəlir (323 manat), müvafiq kateqoriya üzrə ən az göstəriciyə malik Plankənd kəndindəki ev təsərrüfatının gəlirindən (469 manat) 1,5 dəfə azdır.

Ümumilikdə Gürcüstanın üç kəndində ev təsərrüfatlarının kənd təsərrüfatından əldə etdiklərin cəmi gəlir (1378 manat), mavafiq kateqoriya üzrə Azərbaycanın üç kəndinin ümumi gəlirindən (2078 manat)

1,5 dəfə azdır. Araşenda kəndi isə kənd təsərrüfatı fəaliyyətindən ən çox gəlir əldə edən Gürcüstan kəndidir. Bunun məntiqi nəticəsi kimi kənd təsərrüfatından gəlirin xüsusi çəkisi bu kənddə digər Gürcüstan kəndlərinə nisbətən yüksəkdir.

Cədvəl 2. 2015-2019-cu illərdə Azərbaycanın tədqiqat kəndlərində model ev təsərrüfatlarının orta hesabla maliyyə nəticələri

| Kəndlər | | Plankənd | | | | Atabəy | | | | Kərəmli | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı fəaliyyətləri | Vahid | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi, % | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi, % | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi, % |
| Südlük inək | AZN/bir baş südlük inək | 741 | 476 | 265 | 56 | 808 | 513 | 295 | 58 | 784 | 506 | 278 | 55 |
| Qoyunçuluq | AZN/bir baş qoyun | 97 | 52 | 45 | 87 | 117 | 62 | 55 | 89 | 109 | 61 | 48 | 79 |
| Keçiçilik | AZN/bir baş keçi | 103 | 58 | 45 | 78 | 100 | 59 | 41 | 69 | 103 | 59 | 44 | 75 |
| Toyuq | AZN/bir baş toyuq | 37 | 32 | 5 | 16 | 34 | 29 | 5 | 17 | 24 | 20 | 4 | 20 |
| Qaz | AZN/bir baş qaz | 22 | 16 | 6 | 38 | 22 | 16 | 6 | 38 | 22 | 16 | 6 | 38 |
| Arıçılıq | AZN/bir arı ailəsi | 147 | 67 | 80 | 119 | 180 | 65 | 115 | 177 | 212 | 70 | 142 | 203 |
| Kartofçuluq | AZN/hektar | 4144 | 1331 | 2813 | 211 | 5857 | 1625 | 4232 | 260 | 3798 | 1558 | 2240 | 144 |
| Buğda | AZN/hektar | - | - | - | - | 697 | 357 | 340 | 95 | 697 | 342 | 355 | 104 |
| Moruq | AZN/hektar | - | - | - | - | - | - | - | - | 5000 | 1980 | 3020 | 153 |
| Biçənək | AZN/hektar | 338 | 235 | 103 | 44 | 360 | 223 | 137 | 61 | 389 | 309 | 80 | 26 |

Pensiya daxilolmaları ümumilikdə üç Azərbaycan kəndində Gürcüstanın müvafiq kəndlərinə nisbətən 1,2 dəfə çoxdur. Yalnız Şaxvetila kəndind pensiya daxilolmaları (193 manat) Azərbaycanın kəndlərini üstələyir. Qonşu ölkənin pensiya daxilolmalarının ev təsərrüfatlarının gəlirində xüsusi çəkisinin, Azərbaycanın kəndlərindəki gəlirinin xüsusi çəkisinə nisbətən yüksək olmasının səbəbi isə, həmin ölkədə kənd təsərrüfatı gəlirlərinin xüsusi çəkisinin az olması ilə əlaqədardır.

Beləliklə, Azərbaycanda ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti sahələrində və pensiya daxilolmalarından, Gürcüstanda isə qeyri-kənd təsərrüfatı üzrə aylıq gəlirlərin daha yüksək olduğunu müəyyənləşdirmiş olduq. Lakin, gəlirin bölgüsünü ev təsərrüfatlarının üzvlərinin sayına görə apardıqda Gürcüstanın ev təsərrüfatları hər üç

təsnifləşdirmə üzrə (kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı gəlirləri, pensiya daxilolmaları) Azərbaycanın ev təsərrüfatlarını qabaqlayır. Belə ki, Azərbaycanda ev təsərrüfatlarının kənd təsərrüfatı fəaliyyəti sahəsindən orta aylıq gəliri hər nəfərə 139 manat düşdüyü halda, bu məbləğ Gürcüstan üçün 115 manat təşkil edir. Qeyri-kənd təsərrüfatından hər nəfərə görə əldə edilən gəliri təhlil etdikdə isə Azərbaycandakı (61 manat) ev təsərrüfatlarının Gürcüstanla (60 manat) müqayisədə təxminən eyni məbləği əldə edirlər. Yalnız pensiya daxilolmalarında hər nəfərə görə Gürcüstanın ev təsərrüfatları (38 manat), ölkəmizin ev təsərrüfatlarını (36 manat ) cuzi fərqlə qabaqlayır. Bu isə Gürcüstanda sorğuda iştirak edən ev təsərrüfatlarının pensiya alan üzvlərinin sayının çox olmasından irəli gəlir.

Cədvəl 3. 2015-2019-cu illərdə Gürcüstanın tədqiqat kəndlərində model ev təsərrüfatlarının orta hesabla maliyyə nəticələri

| Kəndlər | | Qombori | | | | Araşenda | | | | Şaxvetila | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı fəaliyyətləri | Vahid | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi, % | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi,% | Gəlir | Cəmi xərclər | Mənfəət | Rentabellik səviyyəsi,% |
| Südlük inək | AZN/bir baş südlük inək | 786 | 450 | 336 | 75 | 828 | 474 | 354 | 75 | 866 | 528 | 338 | 64 |
| Qoyunçuluq | AZN/bir baş qoyun | 94 | 52 | 42 | 81 | 87 | 49 | 38 | 78 | 92 | 52 | 40 | 77 |
| Keçiçilik | AZN/bir baş keçi | 70 | 44 | 26 | 59 | 70 | 42 | 28 | 67 | 70 | 43 | 27 | 63 |
| Donuzçuluq | AZN/bir baş donuz | 927 | 469 | 458 | 98 | 927 | 469 | 458 | 98 | 856 | 477 | 378 | 79 |
| Toyuq | AZN/bir baş toyuq | 35 | 28 | 7 | 25 | 35 | 30 | 5 | 17 | 35 | 28 | 7 | 25 |
| Arıçılıq | AZN/bir arı ailəsi | 209 | 65 | 144 | 222 | 209 | 58 | 151 | 260 | 209 | 62 | 147 | 237 |
| Kartofçuluq | AZN/hektar | 526 | 152 | 374 | 245 | 1183 | 400 | 783 | 196 | 1150 | 352 | 798 | 227 |
| Buğda | AZN/hektar | 690 | 350 | 340 | 97 | 690 | 350 | 340 | 97 | 690 | 350 | 340 | 97 |
| Üzümçülük | AZN/hektar | - | - | - | - | 1794 | 1185 | 609 | 51 | 1794 | 1185 | 609 | 51 |
| Biçənək | AZN/hektar | 539 | 414 | 125 | 30 | 539 | 414 | 125 | 30 | 539 | 414 | 125 | 30 |

Dissertasiya işinin “**Ev təsərrüfatlarının gəlirlərinin artırılmasında örüşlərdən və yardımçı təsərrüfatlardan istifadənin səmərəliliyinin yüksəldilməsi**” adlanan 3-cü fəslində örüş yeri və heyvanların baş sayı arasındakı tarazlığın təmin edilməsi məsələləri, ev təsərrüfatlarının gəlirlərinin artırılması imkanlar araşdırılmış, məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirlərinin əlaqələndirilməsi tədqiq edilmişdir.

Hər bir tədqiqat kəndində heyvanların otarılmasında ev təsərrüfatı üzvlərinin "növbə"yə getməsi, həm də muzdlu çoban vasitəsi ilə otarma tətbiq edilir. Ölkələr üzrə isə muzdlu çoban vasitəsi ilə otarılma Azərbaycanda üstünlük təşkil etdiyi halda, Gürcüstanda bunun əksi müşahidə olunur. Qonşu ölkədə ev təsərrüfatları çobana pul ödəməkdənsə özləri növbə ilə otarmağı üstün tuturlar. Hər iki ölkədə növbəli otarma sisteminin tətbiqi, otarılma normasının tətbiqi və idarə edilməsi üçün heç bir rəsmi qayda mövcud deyil. Demək olar ki, bütün kəndlərdə payız aylarında biçənəklərlə yanaşı məhsul yığımından və biçindən sonra əkin sahələrindən heyvanların otarılmasında istifadə edilir. Bəzi kəndlərdə yerli əhali tərəfindən tətbiq edilən qeyri- rəsmi qaydalar var. Məsələn Kərəmli kəndində əvvəlcə kəndin örüş sahəsinin kənar (uzaq) hissələri, sonra isə kəndə yaxın olan hissələr otarılır. Həmçinin Kərəmli və Atabəy kəndlərində örüş sahəsinin kəndə yaxın olan hissələri heyvanlarının sayı az olan ev təsərrüfatları üçün nəzərdə tutulur. Qombori kəndində örüş sahələri ona yaxın olan bölgənin ev təsərrüfatları tərəfindən otarılır. Atabəy, Kərəmli, Araşenda və Şaxvetila kəndlərində heyvanlarının sayı çox olan köçəri və yarımköçəri təsərrüfatların mövcudluğu hesabına örüş sahələrinə düşən otarılma həcmi müəyyən qədər azalmış olur. Köçəri təsərrüfatlar ən çox Kərəmli və Plankənd kəndlərinin ərazisindən keçir. Qombori və Araşenda kəndlərində rəsmi köç yolu olmasa da, yenə də bu kəndlərin ərazisindən az da olsa köçəri təsərrüfatlar keçir. Köçəri təsərrüfatlarla ən çox problem Kərəmli və Araşenda kəndlərində rast gəlinir.

Beləliklə, tədqiqatımız örüş sahələrində otarılma həcminin çox olmasına rast gəlsək də əsas problem otarma ilə bağlı idarəetmə və təşkilati mexanizmin olmamasıdır. Eroziya və deqredasiya əlamətlərinə altı kəndin hamısında rast gəlinsə də, Azərbaycanın üç tədqiqat kəndində bu göstəricilər daha yüksəkdir. Gürcüstanda isə ən çox Araşenda kəndində eroziya və deqredasiya əlamətləri mövcuddur. Qombori kəndi otarılma həcmi ən az olan kənddir. Bununla belə yenə örüş sahələrinə nəzarət sisteminin olmaması bu ərazilərin tədricən kol və meşə ağacları ilə örtülməsinə gətirib çıxarır. Bütün tədqiqat kəndlərində yalnız yerli və qeyri-rəsmi özüidarəetmə sistemləri mövcuddur. Bu qaydalara isə tam və hərtərəfli nəzarət edilməsi isə mexanizmin olmaması hesabına qeyri-mümkündür. Ümumiyyətlə həm

Azərbaycanda, həm də Gürcüstanın kənd təsərrüfatı ilə bağlı hüquqi sənədləri təhlil etdikdə otlaq, örüş sahələri və onların idarəedilməsi ilə bağlı konkret maddələrin mövcud olmadığı qənaətinə gəldik. Beləliklə, otlaq və örüş sahələri ilə bağlı məsələləri tənzimləmək üçün hüquqi sənədin yaradılması istiqamətində çalışmaq lazımdır. Həmçinin bu fəsildə ev təsərrüfatlarının gəlirlərinin artırılması imkanları araşdırılmış, onlar üçün potensial gəlir mənbələri müəyyənləşdirilmişdir. Həmçinin, araşdırmalarımız ev təsərrüfatlarının gəlirlərinin şaxələndirilməsinin vacibliyini bir daha ortaya qoymuşdur. Gəlir mənbələri üzrə birtərəfli asılılığın gəlirə aşkar şəkildə mənfi təsiri və bu təsirin aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

Tədqiqatın nəticələri ev təsərrüfatlarının gəlirlərinin diversifikasiyasının hazırda normal olduğunu göstərir. Lakin, bir daha vurğulamaq lazımdır ki, xüsusən də kənd yerlərində ev təsərrüfatlarının yeganə gəlir mənbəyi kənd təsərrüfatı fəaliyyəti sahələri ola bilməz. Bu xüsusi ilə heyvandarlıq sahəsinə aiddir. Çünki, artmaqda olan heyvanların sayı örüş və otlaq sahələrindən uzun müddət səmərəli istifadə edilməsi əsas şərtlərdən biridir. Ev təsərrüfatlarının gəlirinin yaxşılaşdırılması üçün dövlətin aqrar siyasət proqramın tərkibində urbanizasiyanın qarşısını almaq üçün qeyri-kənd təsərrüfatı sahəsində iş imkanlarının yaradılması vacib şərtlərdəndir. Bu tədbirlərə örüş sahələrinin yaxşılaşdırılması, otarma normasına əməl edilməsi, örüş sahələrinin ot örtüyünün deqredasiyasının qarşısının alınması tədbirləri də daxil edilməlidir.

Elmi tədqiqat işinin birinci fəslində yardımçı təsərrüfatlarla bağlı qeyd olunan qanunvericilik müddəaları və xarakteristikaları hazırkı dövrdə ev təsərrüfatlarının gəlirinin artırılmasına imkan və şərait yaratsa da kəndlərdə apardığımız tədqiqat işləri bunun yetərli olmadığını göstərdi. Belə ki, həm qanunvericilikdə təkmilləşdirilməyə ehtiyac duyulduğu, həm də vətəndaşların yardımçı təsərrüfatlardan lazımı qaydada istifadə edə bilməməsi, bir sıra təsərrüfat işlərinin kortəbii qaydada aparıldığı müşahidə olundu. Təbii ki, bunun da bir sıra obyektiv və subyektiv səbəbləri var. Yardımçı təsərrüfatlarla bağlı bir nəzarət mexanizminin hazırlanıb tətbiq olunması məqsədə uyğun olardı.

Qeyd olunan bütün bu faktlar məşğulluq səviyyəsi ilə ev təsərrüfatlarının gəlirlərinin bir başa əlaqəli olmasını təsdiqləyir. Belə ki, ev təsərrüfatları bu sorğuları kor-təbii olaraq yox, uzun müddətli fəaliyyətin nəticəsi olaraq cavablandırıblar. Beləliklə, daha çox gəlir gətirən məşğuliyyət sahəsi həmin ev təsərrüfatı üçün çox əhəmiyyətli və əhəmiyyətli hesab edilir. İkinci fəsildəki hesablamalar nəticəsində əldə etdiyimiz maliyyə göstəricilərini, sorğudan əldə edilən nəzəri fikirlər əsasında faktiki olaraq bu fəsildə sübut edə bilirik.

## NƏTİCƏLƏR

Bazar münasibətləri şəraitində iqtisadi subyektlər arasında əhəmiyyətliliyinə görə fərqlənən ev təsərrüfatlarının gəlirlərinin və onları formalaşdıran mənbələrin tədqiq edilməsi ölkədaxili iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir. Ev təsərrüfatları şəxsi mülkiyyət sahibi olmaqla bərabər, məhsul istehsal etmək, xidmət göstərmək və təkrar istehsalın fasiləsiz davam etməsinə təsir göstərmək iqtidarındadırlar. Bu baxımdan ev təsərrüfatları iqtisadi münasibətlər sistemində əhəmiyyətli rol oynayır. Ona görə də, ev təsərrüfatlarının faktiki gəlir mənbələrindən səmərəli istifadənin öyrənilməsi, potensial gəlir mənbələrinin araşdırılması bu iqtisadi subyektlər üçün maliyyə təminatının yaxşılaşdırılması baxımından vacib məsələlərdəndir.

Əksər hallarda ev təsərrüfatının özəyini ailələr təşkil edir. Lakin, tədqiqatımızın əvvəlində də qeyd etdiyimiz kimi hər ev təsərrüfatı ailə hesab edilə bilməz. Həmçinin, iqtisadi təhlillər zamanı da ailə yox, ev təsərrüfatları ön plana çıxır.

Ev təsərrüfatlarının gəlirlərinin formalaşmasında örüşlər və yardımçı istehsal sahələrindən səmərəli istifadənin rolu üzrə apardığımız tədqiqat işinin başa çatdığı dövrdə qlobal konteksdə baş verən ən son yeniliklər, eləcə də Vətən Müharibəsində Qarabağ zəfərindən sonra bölgədə quruculuq işlərinin sürətlə aparılması, xüsusi ilə işğaldan azad edilən kəndlərdə “ağıllı” texnologiyaların tətbiq edildiyi meqalayihələrin icrasına başlanılması, ev təsərrüfatlarının gəlirlərinə və bu gəlirləri formalaşdıran mənbələrin şaxələndirilməsi istiqamətində öz müsbət təsirini göstərəcəkdir. Eyni zamanda COVİD-19 pandemiyasının son iki ildə istər qlobal, istərsə də lokal fəsadları da ev təsərrü-

fatlarının iqtisadi və sosial vəziyyətinə təsirsiz ötüşməmişdir. Pandemiya ilə əlaqədar məhdudlaşdırıcı tədbirlər nəticəsində ev təsərrüfatlarının yetişdirdikləri məhsulları bazara çıxarmalarında çətinliklər yaranmış, gəlirlərinə mənfi təsir etmişdir. Həmçinin qeyri-kənd təsərrüfatı fəaliyyəti sahələrində iş yerlərinin ixtisar edilməsi də həmin sahələrdə çalışan ev təsərrüfatı üzvlərinin işsiz qalmasına, gəlirlərin azalmasına səbəb olmuşdur.

Aparılan işlərlərlə yanaşı müvafiq istiqamətlərdə səmərəli nəticələr əldə edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar:

- ev təsərrüfatı müştərək iqtisadi qərarlar qəbul edən şəxs və ya şəxslərdən ibarət olan, vahid büdcə sisteminə malik, istehsal amillərinin mülkiyyətçisi olan bir iqtisadi subyektdir. Öz şəxsi mülkiyyətində olan istehsal amillərinin mülkiyətçisi olduğundan, iqtisadi münasibətlər sistemində ev təsərrüfatlarının rolu xüsusi ilə əhəmiyyətlidir.
- tədqiqatlarımız göstərdi ki, xüsusi ilə dağlıq və dağətəyi bölgələrdə yaşayan ev təsərrüfatları təkcə istehlakçı deyil, həm də məhsul və xidmətlərin istehsalçılarıdırlar. Bu baxımdan ev təsərrüfatlarına xüsusi ilə kənd təsərrüfatında məhsul və xidmətlərin istehsalçısı kimi baxılmalıdır;
- ev təsərrüfatları da digər iqtisadi subyektlər kimi əmək, kapital və torpaq resurslarına malikdir. Bu baxımdan ev təsərrüfatları dəyər zəncirində öz yerini alaraq dövrü-axın modelinin iştirakçısı kimi vacib rol oynayır;
- kənd təsərrüfatında məhsul və xidmətlərin istehsalında ev təsərrüfatlarının xüsusi çəkisinin fərqləndirilməsi üçün vahid uçot sisteminin yaradılması, bu sistemə nəzarət mexanizminin formalaşdırılması ev təsərrüfatlarının mövcudluğunun əhəmiyyətini daha da artıracaqdır;
- ev təsərrüfatlarının gəlirini və onları formalaşdıran mənbələr müxtəlif amillərin təsiri altındadır. Bu amillərdən biri də insan və onun şəxsi keyfiyyətləridir. İnsanların qabiliyyətinin, bilik və bacarıqlarının gəlirə təsiri təkcə nəzəriyyədə deyil, eyni zamanda praktikada da özünü doğrultmaqdadır;
- ev təsərrüfatlarının örüş və otlaq sahələrindən istifadəsinin səmərəliliyinin davamlılığını təmin etmək üçün otarma normasının

yaxşılaşdırılması vacib şərtdir. Bu istiqamətdə müvafiq tədbirlər planı hazırlanmalı, növbəli otarma mexanizmi tətbiq edilməli və bu mexanizmin faydalı olması üçün ona müntəzəm nəzarət edilməlidir;

- ölkəmizdə örüş və otlaq sahələrinin istifadəsi, idarə edilməsi və bu proseslərə nəzarət edilməsi ilə əlaqədar konkret müddəaların öz əksini tapdığı hüquqi normativ baza yaradılması vacib məsələdir;

- Vətən Müharibəsində işğaldan azad edilmiş ərazilərdə ev təsərrüfatlarının xüsusi ilə kənd təsərrüfatı sahəsində məşğulluğunun təmin edilməsi baxımından yeni strateji vəzifə və hədəflər müəyyən edilməli, bu ərazilərdə örüş və yardımçı istehsal sahələrinin ev təsərrüfatlarının yeni gəlir mənbələrinin formalaşmasında və gəlirlərin şaxələndirilməsində potensial imkanlar araşdırılmalıdır;

- şəxsi yardımçı təsərrüfatlar da ərzaq ehtiyatının yaranmasında və xüsusi ilə də dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarının qismən də olsa məşğulluq səviyyəsinin artırılmasına, respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının daxili istehsal hesabına təmin olunmasında şərait yaradır. Lakin şəxsi yardımçı təsərrüfatların əhəmiyyətini ön plana çəkmək üçün müvafiq sahənin də uçotunun aparılması, bu sahədə istehsal oluna məhsul və xidmətləri çəkisi, o cümlədən, dəyəri stastiskada öz əksini tapmalıdır;

- həyətyanı sahələrdən səmərəli istifadə edilməsi də ev təsərrüfatlarının gəlirində əhəmiyyətli rol oynaya bilər. Xüsusən də kənd yerlərində həyətyanı sahələrdən səmərəli istifadənin yolları ev təsərrüfatlarının gəlirlərinə təsiri barədə konkret stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir;

- Plankənd və Atabəy kəndlərində kartofçuluqdan əldə edilən gəlir kənd təsərrüfatı fəaliyyəti sahələrindən əldə edilən gəlirin yetmiş faizindən çoxunu təşkil edir. Rəqəmlər ev təsərrüfatlarının müvafiq sahədən yaxşı gəlir əldə etdiklərini göstərsə də, iqitisadi təhlillər bunun əsasən bir tərəfli asılılıq yaratdığını, onsuz da riskli olan kənd təsərrüfatında ev təsərrüfatlarının gəlirlərini daha da riskli olduğunu deməyə əsas verir. Çünki bir növ məhsuldan hər il yüksək məhsuldarlıq və gəlir əldə etməyə heç kim və heç nə zəmanət verə bilməz. Bu baxımdan ev təsərrüfatlarının müvafiq risklərini azaltmaq üçün onların fəaliyyətinin şaxələndirilməsininin stimullaşdırılması prioritet xarakter daşımalıdır;

- tədqiqatlarımız mülkiyyətində olan arı ailələrinə peşəkar qulluq edən ev təsərrüfatlarının müvafiq sahədən əldə etdikləri gəlirin daha yüksək olduğunu göstərir. Ancaq belə ev təsərrüfatlarının sayı azlıq təşkil etdiyi üçün müvafiq olaraq orta göstəricinin də aşağı olmasına gətirib çıxarır. Ev təsərrüfatlarının arıçılıqdan gəlirlərini yaxşılaşdırmaq üçün, arı ailələrinə qulluq qaydaları ilə bağlı bölgələrdə təlimlərin və mariflәndirici tədbirlərin keçirilməsi vacibdir;

- dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarının bazara çıxışının asanlaşdırılması, yol infrasturkturunun yaxşılaşdırılması, coğrafi baxımından əlverişsiz mövqedə yerləşən kəndlər üçün satış kanallarının yaradılması ev təsərrüfatlarının gəlirlərinin və gəlir mənbələrinin artırılmasında mühüm əhəmiyyət kəsb edə bilər. Xüsusi ilə yaradılan satış kanallarına nəzarət edilməsi işləri gənclərə həvalə olunarsa, onların həm məşğulluqla bağlı problemləri müəyyən qədər aradan qalxmış olar, həm də kənd təsərrüfatı sahələrində məşğulluğunu stimullaşdırar. Kənd mərkəzlərində şəhər tipli infrastrukturun qurulması kənd yerlərinə olan marağı artırmaqla yanaşı, urbanizasiyanın qarşısını müəyyən qədər almış olar;

- potensial imkanların çox yüksək olduğu tədqiqat kənlərində aqroturizmin yaradılması və inkişaf etdirilməsi ev təsərrüfatlarının gəlirinə müsbət təsir etməklə yanaşı, bu istiqamətdə atılan addımlar məşğulluq proleminin həllinə və gəncləri “kənddə qalmağa” da sövq edə bilər;

- dövlət tərəfindən aqrar sahibkarlığın dəstəklənməsi ev təsərrüfatlarında istehsalın səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təkan verərək, istehsal etdikləri məhsulları təkcə xammal kimi yox, eyni zamanda emal məhsulu kimi satmaqla gəlirlərinin artmasına imkan yaradacaq. Bu baxımdan ev təsərrüfatlarının aqrar sahə üzrə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması mexanizmi təkmilləşdirilməli, müvafiq istiqamətdə resursqoruyucu istehsalın maddi-texniki bazası və infrastrukturu yaradılmalıdır;

- həmçinin ev təsərrüfatlarına yüksək keyfiyyətli və rəqabətə davamlı məhsul istehsal etmələri üçün ən azından onlara yaxın olan rayon mərkəzlərində informasiya-məsləhət xidmətinin təmin edilməsi zəruri olan digər şərtləndən biridir;

- təhsil səviyyəsi ev təsərrüfatlarının gəlirlərinə aşkar şəkildə təsir edir və bunu elmi tədqiqat işində əyani faktlar da göstərir. Bir çox hallarda ev təsərrüfatı üzvləri daha yaxşı təhsil almaq üçün də kənd yerlərini tərk etməli olurlar. Ev təsərrüfatlarının gəlir mənbələrinin çoxşaxəli olması baxımından bu istiqamətdə də tədbirlərin görülməsi, kənd yerlərində təhsilin yaxşılaşdırılması vacib amillərdən biridir;

- işğaldan azad olunmuş ərazilərdə "Ağıllı" texnologiyaların tətbiqi ilə ev təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməli, onların gəlirlərinin artırılması imkanları araşdırılmalı, yeni gəlir mənbələrinin formalaşdırılması üçün potensial imkanlar müəyyənləşdirilməlidir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**


1. Hüseynov, M.C., Məmmədov, N.N. Örüş yerlərindən birgə istifadədə olan problemlər və imkanlar// "Davamlı inkişafın milli modeli və strategiyası" mövzusunda respublika elmi konfransın materialları, –Mingəçevir: –27-28 noyabr, –2015, –s. 155-157
2. Hüseynov, M.C., Məmmədov, N.N. Dağlıq ərazilərdə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında heyvandarlıq fəaliyyətinin maliyyə nəticələrinin yüksəldilməsinin rolu. //ADAU Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq. 8-ci Beynəlxalq Elmi-Praltiki Konfrans. –Gəncə, Azərbaycan, –03-04 oktyabr, –2016, – s.221-225
3. Məmmədov, N.N. Ev təsərrüfatlarının gəlirlərinin artırılmasının həyat səviyyəsinə təsiri məsələləri //–Gəncə: Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, –2017. №4, –s.191 – 198.
4. Mammadov, N.N.The results financial activities of the model households in Azerbaijan. Current issues of finance, economics, accounting and management: Theory and practice// International scientific –practical conference, – Poltava: –Ukraine, Dec.4, –2017, –p.75–77.
5. Allahverdiya, N., Mammadov N. Socio-economic analyses of farming households in Azerbaijan and Georgia // A Focus on Research and Higher Education in/on Central Asia and the Caucasus, – Almaty: –Khazakstan ACBK, –16-18 april, 2018, – p.34/
6. Mammadov, N.N. Income sources of the model households from agricultural activities in case study villages in Azerbaijan and

Georgia // Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri. Beynəlxalq Elmi Konfrans, –Gəncə: Gəncə Dövlət Universiteti 03-04 may –2019, –p.235-237

7. Mammadov, N.N. Finance sources of households from agricultural activities in case study villages in Azerbaijan and Georgia.// –Naxçıvan: Naxçıvan Dövlət Universiteti. elmi əsərlər, 2019, № 2 (99) İSSN 2224-0829. Səh.180-182.

8. Jafarov, J.F., Mammadov, N.N., Zabolotnyy S. Economic Evaluation and Insurance of organic agriculture production in the households of Azerbaijan and Poland // "Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişafı" Respublika elmi-praktik konfransın materialları., – Gəncə: –ADAU, –29 oktyabr –2019, –s.118-122.

9. Allahverdiyeva, N., Mammadov, N., Neudert, R. The economic importance of livestock keeping for farming households in Azerbaijan and Georgia//Forum: Small Farms in Transition, – Halle (Saale), Germany. –26-28 June, – 2019, p. 31-36 .

10. Neudert, R. Diversification of livestock-keeping smallholders in mountainous rural regions of Azerbaijan and Georgia / Allahverdiyeva N., Mammadov N., Didebulidze A., [ et al.] // Land-international and crossdisciplinary peer- reviewed open access journal. –2020. №9, - 10 August. p. 1-23.

11. Hüseynov, M.C., Məmmədov, N.N. Ev təsərrüfatlarına nəzəri baxışlar və xarakterik xüsusiyyətləri //–Bakı: Kooperasiya elmi-praktiki jurnalı, –2020. №3(58), –s.5-11.

12. Hüseynov, M.C., Məmmədov, N.N. Ev təsərrüfatlarının maliyyə nəticələri. //–Bakı: Kooperasiya elmi-praktiki jurnalı, –2020. №4(59), –s.119-125.

13. Məmmədov, N.N. Ev təsərrüfatlarının gəlirləri: kənd təsərrüfatı fəaliyyəti sahələri üzrə gəlirlərin təhlili.// –Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Xəbərləri. Cild 9, –yanvar-mart 2021.–s. 138-152.

14. Məmmədov, N.N. Dağlıq və dağətəyi bölgələrdə yerləşən ev təsərrüfatlarının gəlirlərinin artırılması imkanları.// –Gəncə: Azərbaycan Texnologiya Universiteti.İnnovasiyalı iqtisadiyyat və menecment jurnalı, – 2021.№2/6 –s.48-56.

Dissertasiyanın müdafiəsi “16” mart 2022-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 16 fevral 2022-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.02.22
Kağızın formatı: 60x84
Həcm: 44773 işarə
Tiraj: 100